# Xalqımızın əziz və uca tutduğu bayram

## *Prezident İlham ƏLİYEV: "Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır"*

Minilliklərə söykənən ənənələr, tarixdən süzülüb gələn mental baxışlardan qaynaqlanan mənəvi dəyərlər hər bir xalqın milliliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına dəyərli töhfədir. Eyni zamanda, müxtəlif faktorlarla yanaşı, mənəvi zənginlik də xalqların özünü təsdiq etməsi baxımından ən mühüm keyfiyyətlərdən hesab olunur. Bu mənada Azərbaycan xalqının qədim tarixə istinad edən mənəvi keyfiyyətləri bizim qürur mənbəyimizdir. Qədim adət-ənənələri ilə tarix boyu bəşər sivilizasiyasına mühüm töhfələr vermiş xalqımız milli-mənəvi dəyərlərini, dünyaya nümunə olan yüksək əxlaqi keyfiyyətlərini daim qoruyub saxlamış, inkişaf etdirmişdir.

Azərbaycan xalqının milli-mənəvi irsi həqiqətən də böyük xəzinədir. Tarixin ənginliklərindən yığılıb gələn bu sərvət heç vaxt itirilməmiş, ən ali milli keyfiyyətlərlə, yüksək koloritlərlə daha da zənginləşmişdir. Hətta müəyyən dövrlərdə də xarici, yad təsirlər Azərbaycan xalqının milli dəyərlərinə sadiqliyini əlindən ala bilməmişdir. Məqsədyönlü addımlar, repressiyalar, şüurlu şəkildə insanlarımızı öz inanclarından, adət-ənənələrindən uzaqlaşdırmaq, mental baxışlarında dəyişikliyə edilən cəhdlər səmərəsiz qalmışdır. Başqa sözlə, Azərbaycan xalqı nəyin bahasına olursa-olsun özünün milli dəyərlərini qorumuş və inkişaf etdirmişdir.

Xalqımızın milli-mənəvi dəyərlər sistemində dərin kök salmış qədim adət-ənənələrimiz, el şənliklərimiz özünəməxsus cəhətləri ilə seçilir. Təbiətin təzələnməsini özündə ehtiva etməklə insanların xoş ovqatına yol açan bir adət kimi hər il ölkəmizdə yekdilliklə qeyd olunan Novruz bayramı da bir sıra özünəməxsus cəhətləri ilə fərqlənir. Heç bir tarixi hadisə ilə bağlı olmayan Novruz bayramı qədim əcdadlarımızın mifik dünyagörüşünə istinad edərək baharın gəlişi, təbiətin canlanması, torpağın oyanması ilə bağlı olan bayramdır. Təbiətin yenidən canlanmasını müjdələyən Novruz bayramı sadəcə şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanlarımızın ürəyində özünə yer tapmış, həyatına daxil olmuş, işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusunu yaşatmışdır. Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaratmışdır. Təbiətlə bağlı olan bu gözəl bayramda həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiram ifadə olunur. Xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələr keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bu bahar bayramında bütöv bir şəkildə yaşayır. Novruz bayramı günlərində ölkəmizin hər yerində, hər evdə, hər ailədə bayram əhvali-ruhiyyəsi hökm sürür. İnsanlar Novruz bayramını böyük sevinc hissi ilə bayram edirlər. Ulu babalarımızdan miras qalmış adət-ənənələr bayram günlərində, bayram şənliklərində nümayiş etdirilir.

Xalqımız əsrlər boyu Novruz bayramını əziz tutmuşdur. Təsadüfi deyil ki, Novruz bayramı ümumən bütün türk dünyasına xas olsa da, bu el şənliyini ən uca tutan, onu ən yüksək səviyyədə qeyd edən Azərbaycan xalqıdır. Hətta sovet hakimiyyəti dövründə, xalqların milli ruhlarının tapdalandığı illərdə xalqımız Novruzu yaşatmış, gələcək nəsillərə ötürmüş, yaddaşlardan silinməsinə imkan verməmişdir. *"Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir"*, - deyə ümummilli lider Heydər Əliyev xalqa müraciətində bildirirdi. Sovetlər dövründə dövlət səviyyəsində qeyd olunmasına imkan verilməsə də, hər il çərşənbə axşamlarında tonqallar qalanmış, hər bir ailədə Novruz süfrəsi açılmış, bayramın atributu olan şirniyyatlar bişirilmişdir.

Yalnız sovet imperiyasının dağılmasından sonra xalqımızın Novruz bayramını bu el şənliyinin adına layiq şəkildə qeyd etməsi üçün imkan yarandı. Düzdür, ilk illərdə ölkəmizin təlatümlər içərisində olması, cəbhədəki uğursuzluqlar, siyasi çəkişmələr, iqtisadi böhran Novruz bayramının həm dövlət səviyyəsində, həm də hər bir evdə könül xoşluğu ilə qeyd olunmasına imkan vermirdi. Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün istiqamətlərdə müsbətə doğru yaranan dönüş Novruz bayramına da təsirsiz ötüşmədi. Elə bunun nəticəsi idi ki, 1994-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev hər il Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayırdı. Novruz bayramını Azərbaycanın dövlət müstəqilliyinin xalqımıza verdiyi bəhrə kimi qiymətləndirən ümummilli lider təbriklərində xalqımızın hər zaman öz adət-ənənələrini uca tutacağına, onları qoruyub saxlayacağına və inkişaf etdirəcəyinə inamını ifadə edirdi.

Xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi Azərbaycan Prezidenti İlham Əliyevin də həyata keçirdiyi siyasətin mühüm nailiyyətləri sırasında yer alır. Prezident İlham Əliyev tarixi-mədəni irsimizin yaşadılmasına və milli-mənəvi dəyərlərimizin qorunmasına xüsusi qayğı ilə yanaşaraq bu məqsədlə son 12 ildə mühüm addımlar atıb. Bütün bunlar ümummilli lider Heydər Əliyevin siyasi varisi kimi Prezident İlham Əliyevin xalqımızın milli dəyərlərinə bağlı olduğunu, onlara hörmət və saygı ilə yanaşdığını təsdiqləyib.

Hər il dövlət səviyyəsində qeyd olunan Novruz bayramı münasibətilə Prezident İlham Əliyevin xalqa ünvanladığı təbriklər də dövlət başçısının milli və mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşmasının göstəricisidir. Bu il də Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində səmimi arzularını çatdıran Prezident İlham Əliyev Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malik olduğunu bildirib. *"Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər. Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir"*.

Novruz bayramı ali bəşəri duyğuların daşıyıcısı olaraq UNESCO-nun Ümumdünya qeyri-maddi mədəni irs siyahısına daxil edilib. BMT Baş Məclisinin 64-cü sessiyasının iclasında mart ayının 21-i Beynəlxalq Novruz Günü elan olunub. Təbrikində bunun hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurduğunu bildirən Prezident İlham Əliyev həmrəyliyimizin rəmzi olan Novruz bayramının hər evə xoş ovqat gətirməsini, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləməsini arzu edib.

Prezident İlham Əliyevin Novruz şənliklərinə qatılması, vətəndaşlarla hal-əhval tutması milli dəyərlərə böyük önəm verməsinin göstəricisi olmaqla yanaşı, Novruza mötəbər dövlət bayramı kimi verilən qiymətdir. Xalqımız özünün milli və tarixi adət-ənənəsinə çevrilmiş Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır, xoş əhvali-ruhiyyə nümayiş etdirir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**